Şəhidlər ölməz, Vətən bölünməz

***Adı torpaq olan məkana şəhid qanı töküləndə, torpaq qanla yoğrulanda adına Vətən deyirlər. Ömər kimi igidlər torpağın ağuşuna əbədi sığınanda bir daha inanırsan ki, vətənpərvər, torpaqsevər oğulların ürəkləri elə Vətən boydadır.***



# İgid ölər, adı qalar...

Ömər Rəşad oğlu Rəhimli 2002-ci il fevralın 1-də Ağcabədi rayonunun Hindarx qəsəbəsində dünyaya göz açıb. Orada orta təhsil alıb. Vətən müharibəsi başlananda Azərbaycan Ordusunda həqiqi hərbi xidmətdə olan Ömər döyüş bölgəsinə yollanıb. Topçu kimi Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Hadrut, Laçının kəndləri, Xocavənd, Daşaltı və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Azad etdikləri hər şəhər və hər kənddə daşlara “Ağcəbədi. Hindarxlı Ömər Rəhimli” sözlərini yaza-yaza irəliləyib. Hər dəfə evə zəng edəndə isə deyirmiş: “Yanıb külə dönsəm, nə dərdim – Vətən torpağını bir ovuc böyüdərdim...”

Birinci Qarabağ müharibəsində Hindarx qəsəbəsi 38 şəhid verib. 2016-cı ilin Aprel döyüşlərində Dilsuz Qarayev, İkinci Qarabağ müharibəsində isə Ömər bu sıraya qoşulublar.

Noyabrın 9-da Şuşada gedən döyüşlərdə ağır yaralanıb. Buna baxmayaraq, telefonu götürüb əmisinə zəng edə bilib. Onu 7 saat sonra yoldaşları döyüş meydanından çıxara biliblər. Hadrutda qanaxması dayandırılıb və yaralı igid Füzuli hospitalına aparılıb. Ertəsi gün onu Bakıdakı hərbi hospitala göndəriblər. Orada bir neçə günlük müalicədən sonra həkimlər Öməri əməliyyat etməyə qərar veriblər. Əməliyyatdan isə ayılmayıb. Noyabrın 22-də gözlərini əbədi yumaraq şəhidlik məqamına yetişib. Doğma Hindarx qəsəbəsinin qəbirstanlığında torpağa tapşırılıb.

Həmin qəsəbədə küçələrdən birinə şəhid Ömər Rəhimlinin adı verilib. Tədbirə rayon ictimaiyyətinin nümayəndələri, şəhidin döyüş dostları və yaxınları da qatılıblar. Orada onun xatirəsinə bulaq kompleksi inşa edilib.

“Mən qürur duyuram ki, oğlum qısa ömründə böyük iş gördü. Həmişə deyirdi ki, mənim yolum başqadır. Hərbi xidmət keçmədən, torpaqlarımızı düşməndən azad etmədən bu torpağın üzərində gəzməyə haqqımız yoxdur. Öncə Vətəndir! Ömər Azərbaycan əsgəri kimi torpaqlarımızın işğaldan azad olunmasında igidlik və rəşadət göstərdi. Bu torpaq uğrunda qan axıtdı, canını fəda etdi”. – Bunlar şəhidin atası Rəşad müəllimin ürək sözləridir.

“Məndən bir yaş böyük idi. Uşaqlıqdan çox vətənpərvər idi. Ən çox şəhidimiz Dilsuz Qarayevdən sual verirdi, Milli Qəhrəman Mübariz İbrahimovdan danışırdı. Sanki şəhidlik sirvəsinə ucalacağı ona agah olmuşdu... Fəxr edirəm onunla”. – Bu isə şəhidin qardaşı Orxan Rəhimlinin dedikləridir.

Gəncə Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 20 saylı kitabxana filialı şəhid Ömər Rəşad oğlu Rəhimlinin xatirəsinə “Vətən uğrunda şərəfli ölüm” adlı anım günü keçirib. Şəhidin anası Zülfiyyə Rəhimova onun haqqında xatirələrini danışıb, belə bir oğul anası olması ilə qürur duyduğunu söyləyib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində Vətən müharibəsi şəhidi Ömər Rəhimlinin xatirəsinə həsr olunan onlayn şahmat turniri keçirilib. Qaliblərin mükafatlandırılması mərasimində onun atası R.Rəhimov da çıxış edərək övladının xatirəsinin əziz tutulmasına görə minnətdarlığını bildirib.

...Ömər əsgərliyə yola düşəndə doğma məktəbə gedib. Sevimli tarix müəllimi Könül Cəfərovanın sinfinin qapısını döyüb. Müəllim ondan gəlişinin səbəbini soruşanda Ömər gülümsəyib: “- Müəllim, əsgərliyə gedirəm. Gəldim ki, görüşək. Bəlkə bir də...” Bu zaman sinfin uşaqları hamı bir nəfər kimi ayağa qalxıb və ucadan deyiblər: “Şəhidlər ölməz, Vətən bölünməz!” Ömər bu sözlərdən duyğulanıb, “Nə yaxşı sözlərdir, lap şəhid olmağım gəldi”, – deyə söyləyib. Elə də olub.

İgid döyüşçü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, ölümündən sonra “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “Laçının azad olunmasına görə” medalları ilə təltif olunub.

Bunlar 18 yaşında şəhid olmuş Ömər Rəhimlinin çox az sətirlərə sığan qısa həyat və döyüş bioqrafiyasıdır. Amma onun ölməz xatirəsi yaşayır, həyatını bir neçə ay əvvəl dünyaya gəlmiş balaca qardaşı davam etdirir. Onun da adını Ömər qoyublar. Zahirən qardaşına çox oxşayır. İndidən balaca Ömərə hərbi paltar geyindirirlər. Əminik ki, balaca Ömər şəhidin şöhrət yolunu davam etdirəcək.

***Adil MİSİRLİ,***
***Ağcabədidə çıxan “Aran” qəzeti redaktorunun müavini,***
***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***